# AZƏRBAYCAN DİLÇİLİYİ

UOT- 811.512.162

ROZA EYVAZOVA*

## HEYDƏR ƏLİYEV: AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI VƏ AZƏRBAYCAN DİLİ

### XÜLASƏ

Əbədi liderimiz Heydər Əliyevin dövlət dilimizin adı sahəsində gördüyü işlər ölkəmizin, xalqımızın, millətimizin, dövlətimizin adının da Azərbaycan dili qalması ilə nəticələndi.

Dövlət dilinin adı məsələsinə daima ciddi yanaşan Heydər Əliyev onun tarixi haqqında hər dəfə samballı çıxışlar etmişdir.

Konstitusiya komissiyasının sədri, Prezident Heydər Əliyev yeni konstitusiya layihəsini hazırlayan komissiyanın 1995-ci il 5 noyabrında keçirilən iclasında müzakirələrin məntiqi nəticəsi kimi dövlət dilimizin adı barədə öz qəti fikrini bildirdi: "Tarixi köklərimizə böyük hörmət və ehtiramımızı bildirərək bu gün mənəvi haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və dövlət səviyyəsinə çatıb. Bunun adını dəyişib başqa ad qoymaq düzgün deyil".

***Açar sözlər:*** *Heydər Əliyev; azərbaycançılıq; tolerantlıq*

Qeyd etmək lazımdır ki ana dilimizin adının sabitləşməsində mərhum Prezidentimiz Heydər Əliyevin böyük rolu olmuşdur. Dilimizin incəliklərinə dərindən bələd olan, onun ifadə vasitələrindən məharətlə istifadə edən Heydər Əliyev Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayarkən komissiyanın növbəti iclası zamanı demişdir:

"Biz öz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, torpaqlarımız, ərazimiz cürbəcür şahlıqların, sultanlıqların, xəlifələrin, dövlətlərin əlinə keçdiyi vaxtlarda da dilimiz ölməyib, yaşayıb. Onu xalq yaşadıbdır! Hər şey inkişafdadır. Belə olan halda şübhəsiz ki, bizim mənsub olduğumuz türkdilli xalqlar da, şaxələniblər, məskun olduqları yerin, ərazinin təsiri altında hərə öz istiqamətində inkişaf edibdir. Ancaq bu dillərin, yəni bizim bu türk dilləri qrupuna mənsub olan dillərin gəlib dövlət dilinə çatması XX əsrdə baş veribdir. ["Azərbaycan" qəzeti, 1995, 7 noyabr]

Dözlət dilinin adı məsələsinə daima çox ciddi yanaşan Heydər Əliyev onun tarixi haqqında hər dəfə çox samballı çıxışlar etmişdir: "Demək, arxivin verdiyi məlumatlardan bunu biz bu gün özümüz üçün aydınlaşdırırıq. 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti yaranan kimi qərar və yaxud əmr verilib – Azərbaycanda kargüzarlıq türk dilində getməlidir. Sonra 1921-ci ildə Nəriman Nərimanov Dadaş Bünyadzadə ilə dekret veriblər ki, Azərbaycan dövlət dili türk dili olmalıdır. 1921-ci İldə Azərbaycan Sovet Sosialist Respublikasının ilk Konstitusiyası qəbul olunub. Orada dövlət dili haqqında maddə yoxdur. 1924-cü ildə Konstitusiya qəbul olunmayıb.... Mərkəzi İcraiyyə Komitəsinin qərarı olubdur ki, Azərbaycanda dövlət dili türk dili olsun... Qurultaylarda dövlət dili haqqında qərar qəbul olunmayıbdır. Yəni 1924-cü ildə Mərkəzi İcraiyyə Komitəsinin qəbul etdiyi bir qərar sonra o qurultaylarda öz əksini tapmayıbdır.

1936-cı ildə Azərbaycanın Konstitusiya layihəsi hazırlanarkən orada Azərbaycanın dövlət dili türk dili yazılıb. Ancaq 1937-ci ilin aprel ayında qəbul olunubdur və Konstitusiyada dövlət dili haqqında heç bir maddə yoxdur. O vaxtdan, yəni 1936-cı ildən bütün sənədlərdə Azərbaycan dili gedib. Ancaq Konstitusiyada bu olmayıbdır." 1956-cı ildə Azərbaycanın 1937-ci ildə qəbul olunmuş Konstitusiyasına maddə əlavə edilibdir ki, "Azərbaycan dövlət dili Azərbaycan dilidir". Nəhayət 1978-ci ildə qəbul olunmuş Konstitusiyada yazılıb ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir... Tarix budur. Xahiş edirəm hamı bilsin. ["Azərbaycan" qəzeti, 1995, 4 noyabr]

* AMEA Nəsimi adına dilçilik İnstitutu, Sosiolinqvistika və dil əlaqələri şöbəsi, baş elmi işçi, professor;

Bəlli olduğu kimi, 1992-ci ilin 22 dekabrında Azərbaycan dilinin dövlət dili" adı ilə qəbul olunmuş qanunun 1-ci maddəsi o vaxta qədər olanlardan fərqli olaraq "Azərbaycan Respublikasının dövlət dili türk dilidir" şəklində yazıldı. Təbii bu maddə birmənalı qarşılanmadı... Elmi müəssisələrdə və kollektivlərdə aparılan yığıncaqlarla yanaşı 1995-ci il oktyabrın 31-də Azərbaycan Elmlər Akademiyasının, ali məktəblərin, Yazıçılar Birliyinin və müxtəlif partiya nümayəndələrinin geniş iclası keçirildi. Bu iclas 2 gün sonra Prezident yanında davam etdirildi.

Heydər Əliyev məsələyə ciddi diqqət yetirilməsi üçün açıqlamalar vermişdir: Birincisi, ona görə ki, bizim mövcud Konstitusiyamızın 73 maddəsində "Azərbaycan dili" yazılıb. İkincisi, ona görə ki, 1936-cı ildən sonra bizim dilimiz Azərbaycan dili yazılıb. Üçüncüsü də ona görə ki, 1922-ci ilin dekabrında qəbul olunmuş qanun qeyri-qanunidir [Azərbaycan Respublikasının layihəsini hazırlayan komissiyanın iclasında giriş sözü]. ["Azərbaycan" qəzeti, 1995, 4 noyabr]

Qeyd etmək lazımdır ki, dövlət dilinə həsr edilmiş bütün iclaslarda demokratik şərait yaradıldığından müxtəlif fikirlər özünü göstərir. Bunlara nəzər salaq:

Azərbaycan Respublikasının dövlət dili:

1) Azərbaycan dilidir;
2) Türk dilidir;
3) Azərbaycan türk dilidir;
4) Azəri türkcəsidir;
5) Azərbaycan türkcəsidir;
6) Türk dilləri ailəsinə daxil olan Azərbaycan dilidir.

Mərhum Prezidentimiz Heydər Əliyevdən iqtibas: "Gəlin türkdilli xalqlara baxaq. Bəli, biz türkdilli xalqlardan biriyik və türk mənşəli bir xalqıq. Kökümüz birdir. Özbək dili var, türkmən dili var, kumık dili var. Deməli, bu türkdilli xalqların da hər birinin dilinin öz adı var. Türkdilli xalqlarda tatar dili də var, o biri qrup dillər var, onların da hər biri bu qrupa daxildir, amma hər birinin öz adı var. Axı nə təhər Azərbaycan türkcəsi? Millətimiz nədir? Azərbaycan türkü. Nə təhər bu millətin iki adı olsun? Bəs niyə özbək özünə demir ki, Özbəkistan türkü, tatar niyə demir ki, Tatarıstan türküyəm. ["Azərbaycan" qəzeti, 1995, 9 noyabr]

"Taleyimiz belə gətirib ki, məsələn bizə tatar deyiblər. Elə Həsən bəy Zərdabi də özünə tatar deyibdir, o birisilər də özünə tatar deyiblər. Bakıda, Azərbaycanda bir belə azərbaycanlı ziyalı olduğu halda məktəblər açılmışdı – "Russko-tatarskaya şkola"... Mən bununla sadəcə demək istəyirəm ki, bizim taleyimiz belə olubdur. Rusiyada bizə tatar deyiblər. Rusiyanın burada qubernatorları bizə tatar deyiblər. Ondan sonra 1918-ci ildən 1936-cı ilə qədər türk dili, türk deyilib. 60 ildir biz "Azərbaycan dili", "azərbaycanlı" deyirik. İndi bəs nə edək? Bunlara cavab olmalıdır ki, biz qərar qəbul edək. ["Azərbaycan" qəzeti, 1995,9 noyabr]

Mərhum Prezidentimiz həmin müşavirədə demişdir: "Azərbaycan Respublikasının 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" yazılıbdır. 1992-ci ilin dekabr ayında isə Milli Məclisin 26 üzvünün səs verməsi ilə qanun qəbul olunubdur ki, "Azərbaycanın dövlət dili türk dilidir." Belə bir qanun qəbul edilərkən 1978-ci ildə qəbul olunmuş Konstitusiya qanunu ləğv olunmayıbdır... Ona görə də qanunvericilik, qanunçuluq nöqteyi-nəzərindən burada böyük qüsurlara yol verilibdir. Bu, məsələnin bir tərəfi. İkincisi ondan ibarətdir ki, Milli Məclis tərəfindən qeyri-qanuni qəbul olunmuş bu qanun birmənalı qəbul edilməyib." [Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili, 1998]

Nəzərə çatdırmaq lazımdır ki, hərtərəfli müzakirələrdən sonra Konstitusiya komissiyasının sədri Prezident Heydər Əliyev yeni konstitusiya layihəsini hazırlayan komissiyanın 1995-ci il 5 noyabrında keçirilən iclasında müzakirələrin məntiqi nəticəsi kimi dövlət dilimizin adı barədə öz qəti fikrini bildirdi: "Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda bu gün deməliyik və mənəvi haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən düzgün deyil. ["Azərbaycan" qəzeti, 1995, 7 noyabr]

Mərhum Prezident Heydər Əliyevin Azərbaycan yazıçılarının X qurultayındakı nitqindən: "Biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir. Biz bunu təsdiq etmişik və bu artıq bütün ictimaiyyət

tərəfindən təsdiq olunubdur.” [“Xalq qəzeti”, 1997, 5 noyabr]

Əbədi liderimiz Heydər Əliyevin dövlət dilimizin adı sahəsində gördüyü işlər, ölkəmizin, xalqımızın, millətimizin, dövlətimizin adına uyğun olaraq dövlət dilimizin adının da “Azərbaycan dili” qalması ilə nəticələndi. [Roza Eyvazova, 2014,30]

## ƏDƏBİYYAT

1) “Azərbaycan” qəzeti, 1995, 7 noyabr.
2) “Azərbaycan” qəzeti, 1995, 4 noyabr.
3) “Azərbaycan” qəzeti, 1995, 9 noyabr.
4) Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili, Bakı: AMEA Nəsimi adına Dilçilik İnstitutu, 1998.
5) “Xalq qəzeti”, 1997, 5 noyabr.
6) Roza Eyvazova. Bir daha ana dilimizin adı haqqında. Bakı: Elm və təhsil, 2014.

**Roza EYVAZOVA**

## HEYDAR ALIYEV'S IDEOLOGY OF AZERBAIJANISM

## SUMMARY

The work done by our eternal leader Heydar Aliyev, in the name of the official language, resulted in the fact that the name of our country, our people, our nation, our state has been remained as the Azerbaijani language.

Heydar Aliyev, who always taking seriously the issue of the name of the official language, every time has made effective speeches about its history.

President Heydar Aliyev, chairman of the Constitutional Commission at the meeting of the commission preparing a new constitution project on November 5, 1995 expressed his determination to the name of the official language as a logical result of the discussion: «Expressing our great respect and reverence for our historical roots, we have a moral right to say that in the 20th century our language has evolved and developed, gained its unique name and reached the statel level. It is not right to rename it».

***Keywords:*** *Heydar Aliyev, Azerbaijaniism, tolerance*

**Роза ЭЙВАЗОВА**

## ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА ГЕЙДАРА АЛИЕВА

## РЕЗЮМЕ

Деятельность Гейдара Алиева - национального лидера на все времена – в области государственного языка, завершилась тем, что азербайджанский язык сохранил свое название, соответствующее названию страны, нации, государства.

Гейдар Алиев, всегда серьезно подходивший к вопросу государственного языка, запомнился своими весомыми выступлениями и по поводу его истории.

Председатель конституционной комиссии Президент Гейдар Алиев на заседани комиссии от 5 ноября 1995-го года в связи с проектом новой конституции как логическое завершение обсуждений высказал свое заключительное мнение о названии государственного языка: « Выражая большое уважение и почтение к своим историческим корням, сегодня мы имеем моральное право сказать, что в XX веке наш язык прошел период своего развития, сформировался, получил своеобразное название и дошел до государственного уровня. Поменять это название на другое не правильно».

***Ключевые слова:*** *Гейдар Алиев, азербайджанство, толерантность*